2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın Mərkəzi Seçki Komissiyasına daxil olmuş 25 sentyabr 2015-ci il tarixli 11 saylı müraciəti üzrə

# RƏYİ

Bakı şəhəri 28 sentyabr 2015-ci il

2015-ci il sentyabrın 25-də Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Rüstəmov Elxan Əvdil oğlu Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək, namizədliyi 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə Müsavat Partiyası tərəfindən irəli sürülmüş Səmədbəyli Arzu Həbib oğlunun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə namizədin pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü Validə Kazımova həmin müraciəti araşdırarkən aşağıdakıları müəyyən etdim:

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Azərbaycan Respublikasının Mərkəsi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun tərtib edildiyindən və nəzərdə tutulan şikayət vermə müddətində verildiyindən tərəfimdən araşdırmaya qəbul edilmişdir.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqularının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü kimi tərəfimdən icraata qəbul edilmiş və vətəndaşların seçki hüquqlarının daha səmərəli təmini prinsipi əsas götürülərək, qanunla müəyyən olunmuş qaydada araşdırılmışdır.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 27 sentyabr 2015-ci il tarixli protokol və rəydən görünür ki, imza vərəqələrinə daxil edilmiş 547 seçicinin 117-nin şəxsiyyətini təsdiq edən məlumatlar qeyri-düzgün olmaqla etibarsız hesab edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinin tələbinə görə namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Ərizəçinin imza vərəqələrinin və qeydiyyat üçün zəruri sənədlərin yoxlanılması, dairə seçki komissiyasının iclasında iştiraka dəvət edilməməsi, habelə, işçi qrupunun imzaların yoxlanılmasının nəticələrinə dair protokolunun ona verilməməsinə dair iddialar öz təsdiqini tapmamışdır.

Tam, obyektiv və qərəzsiz araşdırma ilə əldə edilmiş məlumatlara əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 8 saylı Binəqədi birinci seçki dairəsi dairə seçki komissiyasının namizədliyi həmin seçki dairəsi üzrə Müsavat Partiyası tərəfindən irəli sürülmüş Səmədbəyli Arzu Həbib oğlunun namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 23 sentyabr 2015-ci il tarixli 18/3 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və “Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat”ın 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Müsavat Partiyasının səlahiyyətli nümayəndəsi Rüstəmov Elxan Əvdil oğlunun 25 sentyabr 2015-ci il tarixli 11 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və namizədliyi 8 saylı Binəqədi birinci seçki dairəsi üzrə Müsavat Partiyası tərəfindən irəli sürülmüş Səmədbəyli Arzu Həbib oğlu həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmasından imtinaya dair həmin dairə seçki komissiyasının 23 sentyabr 2015-ci il tarixli 18/3 saylı qərarı qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü Validə Kazımova